**ASİYA VƏ AFRİKA XALQLARI ƏDƏBİYYATI**

# Müasir urdu ədəbiyyatında bədii nəsr

**Bəsirə Əzizəliyeva**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: besi.azizali@gmail.com

**Annotasiya.** Şərq ənənəvi ədəbiyyatına uyğun olaraq, Urdu klassik ədəbiyyatında nəzm və onun müxtəlif formaları geniş yayılsa da, müasir urdu bədii ədəbiyyatında nəsr əsərləri də əhəmiyyətli yer tutur. XX əsrin əvvəllərində və bütün əsr boyu yaşayıb-yaratmış yazıçıların ədəbi irsi hekayə janrında yazılmış əsərlərlə zəngindir. Əhməd Nadim Qasimi, Saadat Həsən Manto, Mirzə Ədib, İntizar Hüseyn və başqaları son iki əsrin görkəmli yazıçılarıdırlar. XX əsrdə və yeni əsrin əvvəllərində Pakistan bədii nəsrində kiçik hekayələrin geniş yayılması müşahidə edildi. Müasir Urdu ədəbiyyatı siyasi, sosial-iqtisadi, ailə-məişət, mənəvi dəyərlər və bu baxımdan bir çox məsələləri əks etdirən müxtəlif mövzularla zəngindir. Yazıçılar ənənəvi olaraq kiçik hekayələrə üstünlük verməklə, həyatdan götürülmüş mövzuları romantik və realist üslubda yazırdılar. Hekayələrdə bəzən satirik meyillər, sarkazm və tənqid ön plana çıxırdı, bəzən isə yazıçılar fəlsəfi məsələlərə və mənəvi aspektlərə diqqət yetirirdilər. Bu hekayələr özünəməxsus üslub çalarları, mövzu seçimi, inkişafı, ədəbi üslubu ilə orijinal bədii nümunələr idi və Pakistan ədəbiyyatının, xüsusən də urdu nəsrinin yeni cərəyanlarla inkişafına təkan vermişdi.
**Açar sözlər:** Urdu ədəbiyyatı, modern, Əhməd Nadim Qasimi, İntizar Hussain

**Məqalə tarixçəsi:** göndərilib – 05.10.2022; qəbul edilib – 15.10.2022

# Artistic prose in modern Urdu literature

**Basira Azizaliyeva**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: besi.azizali@gmail.com

**Abstract.** Although verse and its various forms are widespread in Urdu classical literature in line with Eastern traditional literature, prose works are also gaining attention in contemporary Urdu fiction. The literary heritage of writers who lived and worked in the 20th century and at the beginning of the new century is rich in examples written in the narrative genre. Ahmad Nadim Qasimi, Saadat Hassan Manto, Mirza Adib, Intizar Hussain and others are among the outstanding writers of the last two centuries. In the 20th century and at the beginning of the new century, the dissemination of stories for Pakistani prose is widely observed. Modern Urdu prose is rich in various topics that reflect political, social, socio-economic, family, domestic, spiritual values and a huge variety of issues that they affect. Writers have traditionally preferred short stories and wrote about topics taken from life in a romantic and realistic style. Sometimes satirical tendencies, sarcasm and criticism came to the fore in the stories, and sometimes writers paid attention to philosophical questions and spiritual aspects. These stories were original artistic exemplars with their stylistic overtones, choice of subject, development, literary style and gave impetus to the development of Pakistani literature, especially Urdu prose, with new trends.
**Keywords:** Urdu literature, modern, Ahmad Nadim Qasimi, Intizar Hussain

**Article history:** received – 05.10.2022; accepted – 15.10.2022

## Giriş / *Introduction*

Klassik urdu ədəbiyyatında Şərq ənənəvi ədəbiyyatına uyğun olaraq nəzm və onun müxtəlif formaları geniş yayılsa da, müasir urdu bədii yaradıcılığında nəsr əsərləri də diqqəti cəlb edir. XX əsrin əvvəlləri və əsr boyu yaşayıb-yaradan yazıçıların ədəbi irsi hekayə janrında yazılmış nümunələrlə zəngindir. Əhməd Nadim Qasimi, Saadat Hassan Manto, Mirzə Ədib, İntizar Hussain, Muhamməd Mansha Yad, Rəşid Amjad, Əhməd Javed, Doktor Eyaz Rahi, Zeytun Bano, Kalender Momand son iki əsrin görkəmli yazıçılarındandırlar.

XX əsr və yeni əsrin əvvəllərində Pakistan nəsri üçün kiçik hekayələrin geniş yayıldığı müşahidə olunur. Şeir, dram əsərləri, roman janrlarında da yazıb-yaradan yazıçıların mühüm bir qismi hekayələri ilə məşhurdur. Kiçik həcm daxilində Hindistan, sonradan isə Pakistanın ictimai-siyasi həyatını, cəmiyyətinin çeşidli problemlərini, eləcə də mənəvi məsələləri hekayə müstəvisinə gətirən yazıçılar ədəbiyyata yeni üslub, tərz və dəyərlər qazandırmışlar. Məqalədə hekayələri özünəməxsus ideya-bədii xüsusiyyətləri ilə seçilən bir sıra yazıçıların əsərlərinə diqqət yetirəcəyik.

## Əsas hissə / *Main Part*

Əhməd Nadim Qasimi (1916-2006) yaradıcılığa nəzm əsərləri ilə başlasa da, yazıçının yaradıcılığında hekayələri də önəmli yer tutur. O, iyirmidən artıq hekayə kitabının müəllifi olmuşdur. “Bir çox ədəbiyyat mükafatı qazanan Qasimi illərlə Pakistanın həm bəzi ədəbiyyat dərgilərinin redaktoru, həm də köşə yazarı kimi çalışmışdır” [1, s.207].

Qasiminin hekayələrinin mövzuları geniş əhatə dairəsinə malik olaraq hürriyyət, azadlıq, bərabərlik, qardaşlıq, sosial ədalət və digər məsələlərlə bağlıdır. Müasiri olduğu dövrün ümumi tendensiyası yazıçının yaradıcılığından da yan keçməmiş, xüsusilə də XX əsr Pakistan nəsrinə xas müharibə mövzusu Qasiminin hekayələri üçün də xarakterik olmuşdur. “Ata Nur” hekayəsi bu baxımdan diqqəti və marağı cəlb edir.

Hekayədə müharibədən oğlunun qara xəbərini alsa da inanmayan və illərlə hər gün poçt idarəsinə gedərək, oğlundan məktub gəlib-gəlmədiyini soruşan və hətta bu hərəkətinə görə kəndin uşaqlarının gülüş hədəfinə çevrilən Nur atanın səssiz faciəsi əks olunmuşdur. Hekayə müharibə, onun səbəb olduğu ölüm və aclığı qısa, lakin mənalı və düşündürücü şəkildə ifadə edir: “Bir milyonerin dediyinə görə, bir daha müharibə olarsa, Karaçi İngiltərəni də geridə qoyacaq. Bir neçə dəfə savaş başlayacaqdı, amma başlamadı. Hər dəfə biri buna mane olmuş deyirlər. Eh, əgər müharibə olmasa, insanlar ölməyəcəklərmi? Müharibə partlarsa, mərmilərdən, lakin partlamazsa, aclıqdan öləcəklər. Elə deyilmi?” [5, s.11]

Hər gün camiyə gedib orada dua edən, kənd uşaqlarına, gənclərinə böyük sevgi ilə yanaşan, ağsaqqalların sevimlisi, hər yeni açılan səhərdə “gedim bir məktub falan varmı, deyə soruşum”, – deyən Nur ata müharibə fəlakətinin qurbanlarındandır: “Bu gün on ildir ki, Nur ata eyni şəkildə bura gəlir. Həmişə eyni sualı verir. Eyni cavab alıb geri dönür. Zavallı xatırlamır ki, mənim ona oxuduğum rəsmi bir məktub oğlunun Birmaniyada mərmiyə qurban getdiyini yazırdı. O gündən bəri ağlını itirmişdi” [5, s.12].

Əhməd Nadim Qasiminin “Mamta” adlı əsəri də müharibə mövzusuna həsr olunmuş hekayələrindəndir. Bu əsərdə pəncablı polisin ingilis məmuru tərəfindən Pəncab əyalətindən Çinin Honkonq şəhərinə göndərilməsindən və Çində yapon müstəmləkəçilərinin törətdiyi zülmlərdən, müharibənin ailələrə vurduğu zərbələrdən bəhs edilir. İlk səhifələrindən daha çox kinayəli üslub ilə başlayan hekayənin faciəli sonluğu yazıçının orjinal tərzini göstərməkdədir. Pəncablıların ingilis müstəmləkəçiliyində vəzifələndirilməsi məsələsinə diqqət çəkən yazıçı qeyd edir: “Uzun zamandan bəri Honkonq polisi üçün Pəncabdan insan gücü ixrac edilirdi. Avropada Hitlerin başladığı müharibə səbəbindən

Honkonq polisinin pəncablı dəliqanlılara olan ehtiyacı ikiqat artmışdır" [5, s.13]. Kiçik bir təqdimatı ilə dünyanın mövcud siyasi münaqişə xəritəsinə nəzər yetirən Qasimi, ilk növbədə, Honkonq polisinin rahat iş üslubuna fikir yönəldərək kinayə edir: "Honkonq isə polis üçün həqiqətən bir cənnətdir. Qısa boylu çinli dilənçi qadınları yol kənarlarından qov, ayaqdan çıxan ayaqqabılar kimi qucaqlarından düşən körpələrini də kirli, pis əllər kimi iki barmağınla qaldırıb analarına tulla, sonra polis mərkəzinə get, bu parlaq xidmətini danış və təqdirnaməni al!" [5, s.13] Yazıçı ingilis idarəçiliyinin çinlilərə münasibətini göstərmək üçün ac və susuz çinli uşaqlarının yol boyu yemək axtarışında olduqlarını göstərir, ingilis idarəçilərinin əhalini yeməklə təmin etməyin mümkünsüzlüyünü ifadə edən söhbətlərində uşaqların Çin torpaqlarından kənarlaşdırılacaqlarını söylədiklərini yazır. Hekayədə çinlilərin "baş verəcəklər niyə olub bitmir" [5, s.14] həyəcanı ilə yaşadıqları vurğulanarkən, Qasimi sanki oxucuları daha ağır olacaq yapon zülmünü müşahidə etməyə hazırlayır. Bütün bu qorxu və müharibə təlaşları arasında yazıçının məqsədi öz doğma torpağından, anasından ayrılmağa məcbur olan pəncablı polisin taleyini önə çəkməkdir: "Mən gündüz etdiyimiz təlimlərdən sonra yorğun-arğın kazarmadakı yatağıma girər, bir sıra xoş şeylər düşünməyə çalışarkən, qaranlığın və səssizliyin yaratdığı qorxu bombardman təyyarələrinin vızıltısı şəklində qulaqlarımda əks-səda verməyə başlar, anamı xayırlayaraq hönkür-hönkür ağlardım. Gündüz də insanların daşlaşmış gözlərini və rəngləri uçmuş üzlərini görüncə, bunların hamısının analarını itirdiklərini, indi də davamlı şəkildə onları axtardıqlarını zənn edirdim" [5, s.15]. Qasimi milli azadlıq duyğularını, bir ananın simasında Vətənə olan münasibəti, torpağından uzaq düşmək məcburiyyətində qalan həmvətəninin həsrətini ananın dilindən simvolik, həssas və ehtiyatlı şəkildə dilə gətirmişdir: "Və de, yavrum, sən orda olanda mən burda ölsəm, haqqın olacaq bir ovuc torpağı mənim məzarıma kim atacaq. O torpaq ki, imam əfəndinin də dediyi kimi, bir ananın məzarındakı qaranlıqda qucaq dolusu ulduzlar kimi parlayır..." [5, s.15]

Hekayədə göy üzü simvolik məqamda uğurlu şəkildə işlədilmişdir. Göy üzünə yönəlmiş baxışların ənənəvi olaraq Tanrıdan yardıma yönəlməsi düşüncəsindən fərqli olaraq, burada səmaya dikilən baxışlar göydən yağacaq təhlükənin həyəcanını yaşamaqdadır: "Bu sualı mən anamın çinli qaçqınlar kimi bir dəqiqədə min dənə bomba yağdıra bilən təyyarələrin çıxacağı üfüqə doğru baxdığımı hiss etdiyim üçün soruşdum" [5, s.16].

İşğal və zülmün yeni səhifəsini Qasimi yaponların Honkonqu zəbt etmələri nümunəsində göstərməyə çalışmışdır. İngilis müstəmləkəçiliyinin Honkonqa sürüklədiyi və Çin şəhərinin işğalı nəticəsində yaponlara əsir düşən pəncablı gənc zülmün yeni üzünü görür: "Yaponlara alışmamız da çox uzun çəkmədi. Köynəyimin düymələri qopmuşdu. Bir gün bir yapondan düymə xahiş etdim. Adam bir həmlədə sinəmdəki tüklərdən bir topa qoparıb əlimə verməzmi? "Al, sənə bir düymə", dedi mənə. Qoparılmış tüklərimin yerindən axan qan yaponlara alışmamızın ilk səhifəsini təşkil edirdi" [5, s.17]. Gənc pəncablı əsir yapon zülmünün sonrakı səhifələrini də göstərir: "O gün hamımız yaponlara alışmamızın son səhifəsini də qət etdik. Demək, əmr almadan gülməyəcəksən, yuxarıya baxmayacaqsan. Boğazını islatmaq istəsən, tüpürcəyini udmaq üçün də əmri gözləyəcəksən. Əmr verilənə kimi nə vəziyyətdəsənsə, büt kimi eyni vəziyyətdə qalmağa davam edəcəksən" [5, s.17].

Honkonqda uzun müddət qalan pəncablı gənc doğma torpağına və anasına qovuşacağı arzusu ilə yaponlara müqavimət göstərmədən əsirliyini çəkir. Lakin Honkonq sahili yaxınlığındakı adalardan birində yüz-yüz əlli çinlinin yaponlara qarşı cəbhə qurduqları xəbərini alan işğalçı dövlət pəncablı gənci də əsgərlər arasında ora göndərir. Yaponlara qarşı basqın edəcəkləriylə günahlandırılan, lakin əslində, sadə bir çinli balıqçı toplumunu təşkil edən insanların simasında Qasimi yenidən işğal, müharibə və zülmün fəlakətlərini təsvir etməyə çalışmışdır. Yazıçının müharibə mövzusundakı əsərdə kinayədən bacarıqla istifadə etmək səriştəsi burada da özünü göstərməkdədir. Üsyana hazırlaşdıqları güman edilən çinliləri əhatə edən yapon əsgərləri daxmalarda yalnız yaşlı qadınların olduqlarını görürlər. Qadınlarla yapon əsgərləri arasında kişilərin hara getmələri ilə bağlı belə bir söhbət olur: "Bir saniyəlik səssizlik bir topa mərmi doldurmaq boşluğunu xatırlatdı. Sonra ağsaçlı qadın bir addım irəli çıxdı və belə cavab verdi: "Günlük işlərinə getdilər".

"Günlük işlərinə ha" komandir bağırdı və belə davam etdi: Demək, Yaponiya hökümətinin köklərini qazmağa getmişlər. Çin sahillərində üsyançılar üçün baza qurmağa getdilər, elə deyilmi?

"Xeyir, dedi qadın. Balıq ovuna getdilər" [5, s.19].

Yaponların gəlişinin Balıqçılar Festivalına təsadüf etdiyi, uşaqlar, gənc qızlar və yaşlı kişilərin festivala getdiklərinə inanmayan vəhşi yapon əsgərlərinin yaşlı qadınlara zülmü pəncablı əsir gəncin ürəkağrıdan təsvirləri ilə təqdim olunur: "Qadınları biz pəncablı əsirlərin nəzarətində qoyan yaponlar daxmalara doğru yürüdülər. Bir müddət ordakı hər şeyi alt-üst edərək söyüşlər söydülər. Bu ərəfədə mən tək-tək çinli qadınların üzlərinə baxırdım. Çənələrinin altındakı sallanan dəri ölüm qorxusundanmı, başqa bir səbəbdənmi tir-tir titrəyirdi" [5, s.20].

Pəncablı əsir çinli qadının simasında öz anasını görür və Qasimi bununla millətindən, ölkəsindən asılı olmayaraq, müstəmləkə zülmünə məruz qalan insanların eyni taleyi yaşadıqlarına diqqət çəkir. Pəncablı gəncin zalım bir yaponun əlində qopan düyməsi çinli əsir qadının əlləriylə tikilir: "Qadın bir az irəlilədi. Köynəyimə düymə taxmağa başladı. Sonra göz yaşlarıyla gülümsədi. Yaponların olduğu tərəfə baxaraq gizlicə mənim yanaqlarımdan öpdü. Köynəyimlə göz yaşlarını sildi və geri döndü.

Bir dəqiqəlik mənə elə gəldi ki, çinidən hazırlanmış qab havaya qalxıb çevrilmiş, mən də Pəncabda anamın qucağına düşmüşdüm" [5, s.23].

Aclıq, yoxsulluq, səfalət də modern urdu nəsrində önə çıxan mövzulardan olmuşdur. Yazıçı Saadat Hassan Mantonun "Mələk" hekayəsi bu baxımdan diqqəti cəlb edir.

Yazıçı Saadat Hassan (1912-1955) ədəbi fəaliyyətinə bədii tərcümələrlə başlamış, Viktor Hüqo, Oskar Vayld və Anton Pavloviç Çexovun bəzi romanlarını urdu dilinə tərcümə etmişdir. 1933-cü ildə Mantonun "Tamaşa" adlı ilk hekayəsi çap olunmuşdur. "Atəşparə" adlı ilk hekayələr kitabı isə 1935-ci ildə nəşr edilmişdir. Pakistan dövləti qurulduqdan sonra Manto Lahorda yaşamışdı. "Mantonun hekayələrinin bir çoxu şəhər həyatının kiçik aspektlərindən bəhs edirdi, bunları oxuyan hətta ən təsadüfi müşahidəçi belə, hadisələrdən tam xəbərdar olmalı idi" [3, s.158]. İyirmi hekayə kitabının müəllifi olan Mantonun bədii nəsrin sözügedən janrına olan münasibəti öz məzar daşı üçün yazılmasını istədiyi bu sözlərindən də bəlli olur: "Burada Saadat Hassan Manto yatır. Sinəsində hekayə yazarlığının bütün sirləri də gömülmüşdü. O, tonlarla toz altında yatarkən hələ düşünməkdədir: ən gözəl hekayə yazarı mənəm, yoxsa Allah?" [2, s.208]

"Mələk" hekayəsində aclıqdan və onun səbəb olduğu xəstəlikdən əziyyət çəkən iki körpəuşaqlı ailənin faciəsi qələmə alınmışdır. Ölümün belə, üz döndərdiyi yoxsul ailənin qızdırma içində yatan kişisi halsızlıqdan qarabasmalar görür və yazıçı həmin qarabasmalardan ədəbi vasitə kimi istifadə edərək fikrilərini ifadə edir: "Nə üçün ölüm səni bu sıxıntıdan qurtarsın. Ölüm üçün elə ölüm olması sıxıntı deyilmi? Kimlərlə baş-başa gəlsin ölüm? Bu dünyada sən tək Ataullah deyilsən ki. Dünya sənin kimi yüz minlərlə Ataullah ilə doludur. Tez ol, get və öz problemlərinə özün bir çarə tap. İki cılız körpə ilə aclıqdan ölməkdə olan arvadı yox etmək çətin iş deyil ki. Özünü bu yükdən qurtarsan, ölüm də utanaraq, həmən ayağına qədər gələcək" [2, s.27].

Ailədə olan, aclıqdan bir dəri, bir sümük qalan dörd və beşyaşlı uşağını xəstə ata öldürməklə xilas olmağa çalışır. Uşaqlardan birini boynunu burmaqla o anda öldürür. İkinci oğlunun ölümə müqaviməti yoxsul və səfalət içində yaşayan ailələrin bir nümunəsini göstərir: "Şiddətli ağrını hiss edən Kərim "nə edirsən, ata?", – deyə soruşdu. "Heç" dedi, Ataullah və ikinci uşağının ölümə nə üçün bu qədər dirəndiyinə heyrət etdi. "Sən yatmaq istəmirsən?", – deyə soruşdu oğlundan. Kərim boynunu ovuşduraraq cavab verdi: "Yatmaq istəyirəm. Yeməyə bir şey ver, sonra yatacam" [2, s.28]. Atanın uşağa zəhər içirməsi də ölümə aparan yolda uğursuz olur. Ölümün belə tərk etdiyi insanların faciəsi körpənin dilindən "insanları ölümə qovuşduran Allah deyilmi, ata?" sualı ilə düşündürülür. Atanın cavabında isə "keçmişdə ölümə qovuşdururdu, amma o bu işi buraxmışdı" söyləməsi faciəni daha da dərinləşdirir. Aclıq və səfalətin ən yüksək zirvəsi atanın öz övladlarını öldürməsi, birini boynunu buraraq, digərini isə çirkli su kanalına ataraq ölümə təslim etməsilə göstərilmişdir.

Yoxsulluq və səfalət içində yaşayan ailələrin fəlakətini göstərmək üçün Saadat Hassan Manto özünü satmaq məcburiyyətində olan ananı da hekayəsinin qəhrəmanı etmişdi. Qadının onu əxlaqsızlığa sürükləyən həkimə dediyi "ərim xəstə, uşaqlarım da ac olmasaydı, mən əsla səninlə çölə çıxmayacaq, bu rəzaləti yaşamayacaqdım. Niyə mənə bu haqsızlığı etdin?, – sözləriylə yazıçı ölkədəki acınacaqlı vəziyyəti göstərməyə çalışmışdır. Qadının ağlını itirməsi və kişinin qarabasmalar içində çabalaması, əslində, çox acı gerçəkləri hekayə müstəvisinə gətirir. Ölüm mələyi və zəhərli iynə vurmaqla

yaşamaqdan xilas edəcək mələk hekayədə analogiyaya gətirilir: "Kim gəlir? Eyni doktor, eyni mələk. Mələk yavaş-yavaş Ataullahın yatağına yaxınlaşdı. Əlində zəhər dolu bir iynə vardı. Ataullah gülümsədi. "Gətirdiniz artıq" dedi. Mələk başı ilə təsdiq elədi: "Bəli, gətirdim". Ataullah titrəyən əlini ona uzatdı. Tez vur!" Mələk iynəni yavaşca Ataullahın qoluna soxdu. Ataullah öldü" [2, s.32].

Modern urdu hekayələrində ailə münasibətləri, münaqişələri, ata-oğul, ər-arvad qarşıdurmaları da önəmli yerə sahibdir. Bu baxımdan Mirzə Ədibin "Seza" hekayəsi əhəmiyyət kəsb edir.

Əsl adı Mirzə Dilavər Ədib olan Mirzə Ədib (1914-1999) də bir sıra urdu şairləri kimi, bədii yaradıcılığa şeirlərlə başlamışdır. Bundan başqa, pyeslər, romanlar da yazmış, uşaq ədəbiyyatının inkişafında da xidmətləri olmuşdur. "Pyesləri və qısa hekayələri ona Pakistan Yazıçılar Gildiyası tərəfindən altı hədiyyə və mükafat qazandırmışdı" [4, s.842]. "1935-ci ildən o zamankı Hindistanın çox tanınmış aylıq dərgisi olan "Edeb-e Latif"in redaktoru kimi 17 il çalışmışdır" [1, s.208]. Səkkiz hekayə kitabının müəllifi olmuş Mirzə Ədib Pakistan hökümətinin "İftixar" medalına layiq görülmüşdür.

"Seza" hekayəsi ata-oğlu münasibətləri zəminində ailə münaqişələrinə, kişilərin qadınlarına qarşı haqsızlığına həsr olunmuşdur. Romantik cizgilərlə yazılmış hekayə real həyatın bir çox məsələlərini də ön plana çəkir. Seth İbrahimin içki düşkünlüyü ailə münasibətlərinin məhvinə gətirib çıxarır. Gənc oğlan atası ilə münaqişə əsasında evini tərk etmiş və illər sonra tənha yaşayan atasının qarşısına çıxararq danışmağa başlamışdır. Hekayəni indidən keçmişə doğru gedərək nəql edən yazıçı maraqlı ədəbi üslubdan istifadə etmişdir. Seth İbrahimin qoca yaşlarında tənhalığının səbəbləri oğlunun xatirələrini səsləndirməsi ilə açılır: "Bundan on yeddi il əvvəl bu evdə sizin ilk və son körpəniz dünyaya gəlmişdi. O, dünyaya gələr-gəlməz, sizin və anamın qaranlıq dünyası aydınlanmışdı. Xatırlayırsınız, elə deyilmi?

Səth suala cavab vermədi. Adam davam etdi: Bu körpə gözlərinizin nuru, anasının qəlbinin parçasıydı. İkisi də uşağı həyatlarının ən böyük neməti hesab edirdilər. Siz və anam bu nemətə Asif adı vermişdiniz. On yeddi il sonra bu gün eyni Asif qarşınızda durur. Amma bu gün siz onu bir dəfə belə görməyə razı deyilsiniz" [2, s.35]. Asif xoşbəxt keçən uşaqlığını, indi onu soyuq məzar kimi qarşılayan atasının sevgi və şəfqətini xatırladır: "O zaman atamın və anamın tükənməz sevgilərini bölüşürdüm. Siz xasiyyətcə sərt bir insan idiniz. Hamı sizdən qorxurdu. Amma evə gəlincə məni sevgi dolu qollarınıza alar, öpə-öpə yanaqlarımı qızardardız. İstədiyim hər şeyi mənim üçün edirdiniz. Çox yaxşı qəlbli bir ata idiniz" [2, s.36].

Məktəb yoldaşlarının birindən eşitdiyi "Asifin atası içki içir" [2, s.36] sözləri ailənin dağılmasının başlanğıcı olur. Asifin hələ uşaqkən anlaya bilmədiyi "içki içir" ifadəsi bu xəbərləri yayan xidmətçinin işdən və evdən qovulması, qayğıkeş atanın qəddarlaşması, ananın göz yaşlarına açar rolunu oynayır. İlk növbədə, atasının otağında dərs hazırlayan Asifin içki şüşələrinə maraqla baxması, sanki bunların nə olduğunu uşaq ağlı ilə çözməyə çalışması ananın qorxularına səbəb olur. Ana həm oğlunun atasının içki içməsindən xəbərdar olmasından, həm də gələcəkdə onun yolunu davam edə biləcəyi təhlükəsindən həyəcanlanır: "Mən şüşələrə işarə edərək anamdan soruşdum: Bunlar nədir, anam? Ana bir qədər düşündü. Sonra bunlarda şərbətlər var dedi və əlimdən tutaraq məni otaqdan çıxardı.

Mən hər baxımdan normal bir adamdım. Lakin zehnimdə davam edən mücadilə sona yetmirdi. Anam bu şüşələrdə "şərbətlər var" dediyi zaman mən necə oldu bilmədim, onun üzündə qara bir cizginin yayıldığını hiss etdim. Bu cizgi onun daxili sıxıntısına bir işarə idi" [2, s.37]. Atasının içki aludəçiliyi evdə daim münaqişələrin olmasına, ata və ana arasında söz-söhbətə, davalara gətirir və yazıçı cəmiyyət üçün ailə münaqişəsinə səbəb olan məsələlərdən birini ön plana çəkir. Qadının ərindən şüşələri oğlunun görməyəcəyi bir yerdə gizlətməyi istəməsi, əslində, Mirzə Ədibə görə, problemin üstünü sadəcə örtmək idi: "Yenə də, Allah xətrinə, bu şüşələri başqa bir yerdə saxlayın", – dedi anam. "Olmaz belə bir şey" deyə təklifini rədd etdiniz. Anam ağlayıb israr etsə də, siz şüşələrlə dolabınızı bəzəyərək zənginliyinizi, eqonuzu reklam edərək bu vasitəylə dostlarınızın yanında yaxşı təəssürat yaratmaq istəyirdiniz. Anamın söylədiklərini rədd etdiniz. Anam ağlayaraq israr edirdi, siz isə onun yalvarışlarını qulaqardı edirdiniz. Ondan sonra anam çox ciddi şəkildə mənim o otağa getməyəcəyimi söylədi" [2, s.38].

Asif isə məsələnin daha da dərininə getməyi, problemi öz adı ilə adlandıraraq ondan qurtulmağın yollarını düşünür. Lakin bu da oğlana uzun illərdən sonrakı zamanda müvəffəq olur və yazıçı nəsillər arasındakı düşüncə fərqini ortaya qoyur.

Nəticədə, oğul atanın otağından nə qədər uzaq tutulmağa çalışılsa da, bir gecə atasının dostları ilə içib əyləndiyi zaman həmin otağa girir, dostlar onu da "ata içirsə, oğul nədən içməsin" sözləriylə içirməyə çalışırlar və bütün bunlar ata-oğul münasibətlərindəki gərginliyi yüksək zirvəsinə gətirib çıxarır: "Sabahı gün siz məni o qədər döydünüz ki, qanlar içində qaldım. Günahım da otağınıza girməyim idi. Gecə anam həm ağlayır, həm də yaralarımı sarıyırdı. Qəlbimdə sizə qarşı bir intiqam atəşi yanmağa başladı. Sabah erkən saatlarda evdən çıxıb getdim" [2, s.38].

Asif bir qatarla şəhərdən qaçdığını, onun kimi evdən qaçan, içkiyə qurşanan bir yoldaşının təsirinə düşərək içkiyə aludə olduğunu, anasının ölüm xəbərini eşidincə belə, iradəsinə qalib gələrərk içkidən qurtula bilmədiyini, özünü "o andan bəri payızda rüzgarın ora-bura uçurduğu, özünə aid bir yeri olmayan sapsarı bir yarpaq kimi hiss etdiyini" [2, s.39], sevdiyi bir qızı ona məhz, kimsəsiz, yoxsul olduğu üçün vermədiklərini dilə gətirərək atasını günahlandırır: "Söyləmək istədiyim budur: bu gecə həyatımın son gecəsidir. Amma həyatımın son gecəsini keçirmədən öncə sənin bir qatil olduğunu sənə bildirmək istəyirəm... Sən bir qatilsən, oğlunun qatili. Məni qətl edən əllər sənin əllərindir. Məsum bir uşağı, sadəcə, inadın üzündən yanlış yollara sürükləyən sənsən" [2, s.40].

Qeyd olunduğu kimi, Mirzə Ədib hekayəni romantik planda yazmış və əsərin sonu da romantik duyğulara bağlanaraq bitir. Oğlunun evi tərk etməsindən yeddi il sonra xərçəng xəstəliyindən qadınını itirən Seth tənha günlərində peşmanlığını dərindən hiss edir. Yazıçı ata peşmanlığı və oğul bədbəxtliyini eyni müstəviyə gətirir və vacib bir məqamı oxucuların diqqətinə çatdırır. "Bir insan başqa bir insana nə qədər əziyyət verirsə versin, bu əziyyət insanın özünə etdiyi əziyyətdən qətiyyən güclü ola bilməz. Peşman olmağım mənim özümə etdiyim ən böyük əziyyətimdir" [2, s.40], – deyən ata çıxış yolunu birlikdə addımlamaqda görür: "Mən peşmanlığın ovladığı bir atayam. Sən isə ümidsizliyin ovuna çevrilən oğul. Gəl, bu gecəni olduğu yerdə tərk edək. Bəlkə də bilinməyən bir yerdə aydınlıq bizi gözləməkdədir. Gəl, o işığı axtaraq. Oğlum! Sənin xoşbəxtliyin mənim peşmanlığımın acısını azaldacaq" [2, s.41].

İntizar Hussainin "Yemək ortaqları" hekayəsi də modern urdu nəsrinin önəmli nümunələrindəndir. Bu əsərdə daha çox mənəvi dəyərlər, humanizm, insanlıq kimi məsələlər ön plana çəkilmişdir.

İntizar Hussain (1925-2016) Pakistanın görkəmli ədiblərindən biri olmuşdur. O, urdu dilində qısa hekayələr, roman və şeirlər yazmışdır. Nəşr olunan iyirmidən artıq kitabı arasında hekayələri də əhəmiyyətli yerə malikdir. "Roman və hekayələrində Qərbi təqlid etməkdənsə, qədim dastanlardakı üslubdan istifadə etmişdir. İntizar Hussainın əsərləri Pakistan ədəbiyyatına yeni istiqamətlər qazandırmışdı. Hekayələrində qədim zamanlarla modern dönəm birlikdə qarşımıza çıxır. Onun əsərlərinin oxucular arasında uğur qazanmasının başlıca səbəbi özünəməxsus üslub, işlətdiyi dilin sadəliyi və mövzularının yeniliyidir" [1, s.209].

"Yemək ortaqları" hekayəsi simvolik xarakter daşıyır, yazıçı insan xarakterlərini quşlar üzərində dəyərləndirir. Gənc adam sərçə, tutuquşu və göyərçinlərlə insan xüsusiyyətlərini analogiyaya gətirir. İnsanlarla təmasda olan bəzi quşların insan xarakterindən təsirlənmədiyinə diqqət çəkərkən, İntizar Hussain göyərçinləri örnək gətirir. Göyərçinlərə qayğı göstərdiyi üçün onun şəfqətindən imtina edən və əlini dişləyən tutuquşundan – Mitthudan fərqli olaraq göyərçinlər çox etibarlı və səmimidirlər: "Göyərçinlər o zamana qədər onlara göstərdiyim laqeydliyə heç küsməmişdilər. Göyərçinlərin ən yaxşı tərəfi də məhz budur. Onlara qarşı yaxşı, yaxud pis rəftara baxmayaraq, qəlbləri hər zaman tərtəmiz qalır. O qədər uzun müddət insanlarla bərabər yaşamalarına baxmayaraq, insanların hər hansı bir eybi onlarda yoxdur. Qəzəb, nifrət, əsəb, bəd niyyətlilik kimi qüsurları onlarda görə bilməzsiniz" [2, s.46].

Real mövzularda fəlsəfi fikirlərə də əhəmiyyət verən İntizar Hussain göyərçinlərin kin, qəzəb və pislikdən uzaq dünyalarını sufilərlə müqayisə edir: "Bunlar əsrlərdən bəri vəlilərin dərgahına bağlı olmuşlar. Aralarında o qədər uzun sürən münasibət təsirsiz qala bilməzdi, təbii ki. Bəlkə də sufilərin

xüsusiyyətləri daha əvvəldən də göyərçinlərdə mövcud olmuşdur. Bunların sufi dərgahlarına meyli də bəlkə ondandır" [2, s.46].

Yazıçı tutuquşunun isə insanların sadəcə danışıqlarını təqlid etmədiyini, eyni zamanda onların xarakterlərinin də təsirinə düşdüyünü ifadə edir: "Tutuquşuların da çox yaxşı tərəfləri var, amma çox pis bir xüsusiyyətləri də mövcuddur. Qısa zamanda yanındakıların yaxşı, pis keyfiyyətlərini mənimsəyirlər. Bu özəllik onların yalnız insanlar kimi danışa bilmələriylə məhdudlaşmır. Gördüyünüz kimi, sadəcə bir dəfə tutuquşumdan əvvəl göyərçinlərə çörək verdiyim üçün Mitthu nə qədər əsəbləşdi" [2, s.46]. İntizar Hussain tutuquşunun timsalında xudbinliyi, paxıllığı, qısqanclığı tənqid edir, göyərçinləri açıqqəlbli, səmimi insanların simasında yüksək qiymətləndirir.

Yazıçı hekayəsinin təhkiyəçisi və qəhrəmanı vasitəsiylə insanların heyvanlara, quşlara münasibəti məsələsinə də diqqət yetirmişdi. Hər gecə evinə gəldiyi zaman anasının onun üçün hazırlayıb otağına qoyduğu yeməyini eyvanında yuva quran dişi və erkək sərçə elə birlikdə yeyən gənc, evlərinə gələn dəcəl uşaqların quşları qorxutması nəticəsində evdən uçub və pəncərəni bağladıqları üçün geriyə qayıda bilməyən və həmin gecə əsən güclü küləyin qurbanına çevrilən sərçələrin timsalında insanların canlı təbiətin digər nümayəndələrinə gətirdikləri fəlakətləri qınayır: "Sağa, sola gəzdikdən sonra gecə evimə qayıdanda yemək masasına oturduğum zaman nə sərçələrin cıvıltısı, nə də qanadlarının çırpıntısını eşitdim. Yeməyi kədərli şəkildə yedim. Ondan sonra gecə yeməyinin dadının tamamilə itdiyini hiss etdim" [2, s.48].

## Nəticə / *Conclusion*

Göründüyü kimi, modern urdu nəsri müxtəlif mövzularla zəngindir, burada siyasi-ictimai, sosial-iqtisadi, ailə-məişət, mənəvi dəyərlər və onların əhatə etdiyi çox müxtəlif məsələlər öz əksini tapmışdır. Yazıçılar ənənəvi olaraq qısa hekayələrə üstünlük vermiş, kiçik həcm daxilində romantik və realist üslubda həyatdan götürülmüş, müasiri olduqları insanları narahat edən mövzuları qələmə almışlar. Bəzən hekayələrdə satirik meyillər, kinayə, tənqid ön plana çıxırdısa, bəzən də yazıçılar fəlsəfi məsələlərə, mənəvi cəhətlərə diqqət yetirirdilər. Bu hekayələr üslubi çalarları, mövzu seçimləri, təhkiyəsi, ədəbi tərzi ilə orijinal bədii nümunələr idi və Pakistan ədəbiyyatının, xüsusilə də urdu nəsrinin yeni meyillərlə inkişafına təkan vermişdir.

## Ədəbiyyat / *References*

1. Emekli Albay. Yazarlara dair notlar. Modern Pakistan Edebiyatı. İslamabad: Masud Publishers, 2012.
2. Modern Pakistan Edebiyatı. İslamabad: Masud Publishers, 2012.
3. David J.Matthews, Christopher Shackle, Shahrukh Husain. Urdu Literature. Islamabad: Alhamra Publishing, 2003.
4. Jafari Aqeel Abbas. Pakistan Chronicle. Karachi: Virsa Publications, 2010,
5. Shaikh Sajjad. Selected Stories of Qasimi Ahmad Nadim. İslamabad: National Book Foundation, 2007.

# Художественная проза в современной литературе урду

**Басира Азизалиева**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: besi.azizali@gmail.com

**Резюме.** Хотя стих и его различные формы широко распространены в классической литературе урду в соответствии с восточной традиционной литературой, прозаические произведения также привлекают внимание в современном художественном творчестве урду. Литературное наследие писателей, живших и творивших в XX веке и в начале нового века богато образцами, написанными в повествовательном жанре. Ахмад Надим Касими, Саадат Хассан Манто, Мирза Адиб, Интизар Хусейн и другие – одни из выдающихся писателей последних двух столетий. В XX веке и начале нового века широко наблюдается распространение небольших рассказов для пакистанской прозы. Современная проза урду богата разнообразными темами, в которых отражены политико-социальные, социально-экономические, семейно-бытовые, духовные ценности и огромное разнообразие вопросов, которые они затрагивают. Писатели традиционно отдавали предпочтение небольшим рассказам, писали о темах, взятых из жизни, в романтическом и реалистическом стиле. Иногда на первый план в рассказах выходили сатирические тенденции, сарказм и критика, а иногда писатели обращали внимание на философские вопросы и духовные аспекты. Эти рассказы были оригинальными художественными образцами со своими стилистическими оттенками, выбором темы, развитием, литературным стилем и дали толчок развитию пакистанской литературы, особенно прозы урду, с новыми тенденциями.
**Ключевые слова:** литература урду, современный, Ахмад Надим Касими, Интизар Хусейн